

*Rafiq MUSA*

# GÖYÇAY SƏFƏRİ

Səhər-səhər sevgiyə bax,
Bu nə sevgi, bu nə ovsun?!
Gündən-günə gözəlləşən
Bakımıza salam olsun!

Tikəni var, sökəni var,
Hərə bir cür sahmanlayır.
Köhnə Bakı, yeni Bakı
Bir-birini tamamlayır.

Bu gün yenə səfərdəyəm,
Dost yanına tələsirəm.
Bir dəfə də olmadığım
Ünvanına tələsirəm.

Düşündük ki, gec olsa da,
Bir yoxlayaq dostu-yadı.
Ona görə səfərimiz
Dost evinə - Göyçayadı.

"Dost dostuna tən gərəkdir",
Sevinc hissi aşıb-daşır.
Əsl dostun pisi olmaz,
Yoxlamadın, dost yadlaşır.

Xırda-para işimizi
Sahmanlayıb, çıxdıq yola.
Əvvəl sağa cəhd elədik
Alınmadı, döndük sola.

Maşınımız küçə boyu
Vurnuxurdu sola-sağa.
İstəyirdi, dar küçədən
Çıxa bilsin "azadlığa".

Hərə bir cür zəbt eləyib,
Alver gedir səkilərdə.
Addım atmaq mümkün deyil,
"Propkalı" səkilər də.

Göydələnlər çəpərləyib
Sağımızı, solumuzu.
Xırdalanın "tıxac"ları
Haçaladı yolumuzu.

Çıxışı dar, girişi dar,
Bu, qaraldır qanımızı.
Yolu-izi sata-sata
Talayırıq Bakımızı.

Kəndi şəhər edəmmirik,
Şəhəri kənd eləmişik.
Nəyi necə edənmi var?
Təhərini bilməmişik.

Sahmanlayaq olanları,
Talamayaq olanı biz.
Nə gilavar, nə xəzri var,
Nəfəs almır şəhərimiz.

Deyiblər ki, çox dərd verər
Su da artıq içiləndə.
Şəhər salmaq haqq işidir
"Yüz ölçüb, bir biçiləndə".

Yediyimiz zəhrimardır,
Ağzımızın qaçıb dadı.
Torpaq alan ortalıqda,
Satanlar kef-damaqdadı.

"İş görənlər" baş girləyir,
Gördüyümüz işlər zaydı.
Yolu-izi gen edərdik,
Zamanında qorusaydıq.

Guya işlər düzəlibdir,
Qalmayıbdır yırtıq-deşik.
Rüşvət gələn deşikləri
"Bir pəncərə" eləmişik.

Hərə bir cür "xox" elədi,
Səs-küy saldıq dalanlardan.
Bir kimsəni incitmədik,
Böyütdülər yalanlarda.

Biz körpünü ötüb keçdik,
Yollar təzə, təpə ulu.
Sulutəpə yol əhlini
Yola saldı "üzüsulu".

Hara isə tələsənin
Tıxaclarda vay halına.
Sağa-sola hirslənərək
Gəlib çıxdıq Atyalına.

Evlər gəldi üstümüzə,
Doğma yerdə bəlkə yadıq?
Yalda yallıq qalmayıbdır,
Atdan xəbər tutammadıq.

Maşınlardan macalmı var?
Yenə tıxac - yolda qaldıq.
Ötüb keçdik Atyalını,
Az olsa da, rahatlandıq.

Burda tarix yada düşdü,
Ölənlərin yanındayıq.
Ömür yolu bərbad olan
"Müşfiq"abad yolundayıq.

Çox keçmədi, gəlib çatdıq
Ceyrankeçməz dərəsinə.
Bir qədimi qoca qəbir gördük,
Boylanırdı qibləsinə.

Tarixçidir ellim Murad,
O, hər sözə söhbət qatdı.
Dedi, türkün oğulları
Tarixə bir amanatdır.

O illərin tarixini
O, bir daha saldı yada.
Safəddin də gecikmədi,
Əlavələr etdi o da.

Bir zamanlar odda yandı
Bu torpağın hər bir yeri.
Araz boyu, Kür boyunca
Lənkərandan üzü bəri.

Qarı düşmən od ələdi,
Rəhm etmədi heç bir kəsə.
Türk qardaşım sahib çıxdı
Hər naləyə, hər bir səsə.

Burda mənim türk əsgərim
Verməyibdir ömrü boşa.
Xatırlanır ər oğullar,
Qurd ürəkli Tələt paşa.

Harda türkün əli varsa,
Həmin yerdən xata sovar.
Bu yerlərdə türkün izi,
Öz tarixi, dastanı var.

Yol uzunu sürüşmələr
Yarğan edib yolu-izi.
Şamaxının dolayları
Haldan saldı, yordu bizi.

Var olsunlar yol çəkənlər,
Yol eyləyib bərə-bəndi.
Qarşılayıb yola saldı
Yolçuları Məzrə kəndi.

Bu günümüz göz önündə,
Dünənimiz dərd-sərimiz.
Daşqalağa tutulanlar,
Soyulanlar - şəhidimiz.

Sabir səbr eləmədi,
El dərdini çəkdi önə.
Bu daş heykəl nə düşünür,
Fikirlidir nədən belə?!

Hiss elədim, nə düşünür,
Düşüncəsi haqlı, gerçək.
Hər şey heç də kara gəlmir,
Zamanında düzələcək.

Arzuları, istəkləri
Dən axtaran quşa dönüb.
Haqsızlığa dözəmməyib,
Əlacsız qarğışa dönüb.

Ürəyindən keçənləri
Duymadılar, görmədilər.
"Hop-hop" kimi çox deyindi,
Səsinə səs vermədilər.

Miras qoydu söz mülkünü,
Dünya ilə çox əlləşdi.
Dərd əlindən qaçammadı,
Vətən daşı heykəlləşdi.

Vərəqlədim ötənləri,
Fikirlərim çözələndi.
Seyid Əzim yaşadığı
Zəmanədən gileyləndi.

Bir səs gəldi qulağıma,
O, illərin səsi idi.
"Ən əl-həqqə" gedən yolla
Addımlayan Nəsimiydi.

Salam etdik yol əhlinə,
Hərə bir cür bizi saydı.
Xaqanidən xəbər tutduq,
Yoxsulların yanındaydı.

Onu rahat buraxmırdı,
Yoxsulların dərdi-səri.
Maşınımız silkələndi,
Çiliкləndi fikirlərim.

Söhbət xeyli qızışmışdı,
Bu nə haydı, nə haraydı?
Yola-izə boylanıram,
Fikirlərim arxadaydı.

Söhbət olan yerdə dostlar
Bir-birinə çox gərəkdi.
Yolu yarı eləsək də,
Söhbətimiz uzun çəkdi.

Burda göylər yerə bağlı,
Bu, nə sirdir, bu nə ovsun?
Göylə yerin birləşdiyi
Pirquluya salam olsun.

Pirqulunu görər-görməz
Xatırladım Nərimanı.
Sonsuzluğa gedən yolda
Onun kimi alim hanı?

Dinc oturub-duran deyil,
Görən, niyə "öcəşir"o?
Pirquluda yeri məlum,
Göylər ilə əlləşir o.

Göylər verir öz sirrini,
Daha elmin olmaz dərdi?!

Min yaşasın Nərimanı,
Yerin-göyün alimidi.

Qoy var olsun eloğlumuz,
Görüşməyi çox istərdik.
Bir gün olar, vaxt taparıq,
Görüşmədən varıb getdik.

Çuxuryurdda məskən salıb,
Tanrı sevsin, pir qorusun.
Mənim ellim Taqora da
Biz tərəfdən salam olsun.

Bir il əvvəl bu yerləri
Mən gəzmişdim addım-addım.
İsa ilə söhbətimi
Dostlarıma xatırlatdım.

Mədəniyyət yoldan başlar,
Hanı kəndin yolu-izi?
Yeri-göyü öyrənirik,
Öyrənmirik özümüzü!

Sahilləri sel aparıb,
Anlamırıq dərdimiz nə?
Hərə bir cür baş girləyir,
Yoxmu çarə dərdimizə?!

Başı qarlı dağlar kimi
Könlüm evi duman-çəndi.
Ucqar kəndlər köç yolunda,
Gördüm, dərdim təzələndi.

Babalarım tarix yazıb,
Qayaların yaddaşına.
Kəndə sahib çıxanlar yox,
Şəhər olub "özbaşına".

Qış gələndə günümüz bu,
Meşələri biz qırırıq.
Ucqar kəndlər tir-tir əsir,
Avropanı qırdırırıq.

Kəndə qayğı göstərən yox,
Deyilsə də neçə kərə.
Bərbad yollar qabar-qabar,
Kəndlər köçür şəhərlərə.

"Bələdçimiz" naşı deyil,
Tanıyırdı yolu-izi.
Çox çəkmədi, döndük sola,
Meşə yolu "çəkdi" bizi.

Bu yerlərin naxışından,
Qoxusundan doymaq olmur.
Ağac altı, bulaq başı
Gecə-gündüz qonaq umur.

Sanki çiçək yatağıdı
Bu yerlərdə bərə-bəndlər.
Meşələrdə məskən salıb
Üzü yola baxan kəndlər.

Bu meşənin kol armudu
Meyvələri gözdən salar.
İtburnunu götür dəmlə,
Soyuqlasan, xeyri olar.

Sanki həzin bayatıdır
Çeşmələrin zümzüməsi.
Aradabir eşidilir
Torağayın xoş nəğməsi.

*(Davamı 6-cı səhifədə)*

# GÖYÇAY SƏFƏRİ

*(Əvvəli 5-ci səhifədə)*

Kəklikotu əvəzsizdir,
Dadlı edər hər xörəyi.
Rahatlığın dərmanıdır
Pəlpətöyün, quşəppəyi.

Yaşıl dağlar vüqarlıdı,
Sayan deyil boran-qarı.
Sanki dağın qurşağıdı
Yamaclarda dağ yolları.

Bu dağlara yolun düşsə,
Qantəpərdən dəmləyib iç.
Duman tutsa yolu, izi,
Ehtiyatla döngədən keç.

Möcüzədir dağ-dərəsi,
Bu yerləri gəzən bilər.
Gözəlliklər çox olsa da,
Az tapılar belə yerlər.

Həvəslənib çox da yemə,
Sən özünü baldan qoru.
Qaymağından doymaq olmur,
Çox dadlıdı yağı, şoru.

Bu dağlara göylər qədər
Ola bilər məhəbbətin.
Zirvəsinə qalxmaq asan,
Dərəsinə enmək çətin.

Buludların köçünə bax,
Elə bil ki, havalıdı.
Dağ ətəyi bağlara bax,
Payız rəngli bir xalıdı.

Yamaclardan dağ aşağı
Seyr etməyin ləzzəti var.
Nə xoşbəxtdir bu dağlarda
Qanadlanıb uçan quşlar.

Bir dinclik var, rahatlıq var
Bu dağların havasında.
Xoş olardı süfrə açmaq
Meşələrin talasında.

Çox şey keçdi qəlbimizdən,
Aşıb-daşdı arzu-istək.
Burda qalmaq xoş olardı,
Amma "yolçu yolda gərək".

Maşınımız, elə bil ki,
Xoşniyyətli bir çapardı.
Elə bil ki, havalıydı,
Baş aşağı "baş apardı".

Yayda qora bişirəndə
Hər kəs yağış sorağında.
Çaylar bulud görən kimi
Coşub-daşar yatağında.

Çayın suyu az olsa da,
Sel gələndə daşmağı var.
Bax belədir Ağsu çayı,
Sahilini aşmağı var.

Yayın bürkü həftəsində
İmkan olmur quşlar çimə.
Qara bulud dağdan enə,
Çaylar bənddir bircə himə.

Yorulmuşduq dolaylarda,
Biz Ağsuya olduq qonaq.
Yoldan döndük biz şəhərə,
Dedik, bir az rahatlanaq.

Biz şəhərlə salamlaşdıq,
Uzaqdaydı hələ Göyçay.
Bizə salam verdi şəhər,
Pis olmadı limonlu çay.

Əsas yolu hədəf etdik,
Döndük sağa, sonra sola.
Ağsu ilə sağollaşdıq,
Sonra çıxdıq əsas yola.

Hiss olunur bu yerlərə
Ayaq açıb qızıl payız.
Şirin söhbət yol qısaldar,
Bu da bizim Göyçayımız.

Bu yerləri cənnət bilib,
El bir olub, yurd salıbdı.
Göyçayımız hər bir kəsin
Zəhmətiylə ucalıbdı.

Çinarları düzüm-düzüm,
Parklar fərqli biçimdədi.
Bu şəhərin elə özü
Yaşıllıqlar içindədi.

Gül-çiçəyə bürünübdür
Küçələrin solu-sağı.
Yaşıllığı sevən kəslər
Bilir harda yaşamağı.

Almaları al yanaqlı,
Heyvaların rəngi sarı.
Payız gəlib, aşıb-daşır,
Gəl-gəl deyir nar bağları.

Burda narın çeşidi çox,
Dadına bax, sən də yarı.
Adı ilə, dadı ilə
Çox sevilir Bığır narı.

Nə xoş gəldi bağlar bizə,
Bağ-bağçanın bar vaxtıdır.
Gözəllikdən doymaq olmur,
Bu yerlərin nar vaxtıdır.

Tanıyanlar bilir narı,
Vaxtı ötüb, ya təzədi.
Yeməsə də, gendən bilir,
Şirindi, ya turşməzədi.

Əl çatmayan meyvələri
Hərdən "oğru" quşlar dərir.
Budur, enib dağ başından,
Dəli xəzan bağa gəlir.

Bağda meyvə yığanların,
Əlbəttə ki, insafı var.
Əl yetməyən meyvələri
Dən tapmayan quşa saxlar.

Xan çinarlar boy atırlar
Bir-birinin həvəsinə.
Baxdım, sanki bulud qonub
Çinarların zirvəsinə.

Xəzan döyür bağ-bağçanı,
Al günəş də erkən batır.
Bu da bağın son baharı,
Alan alır, satan satır.

Aranlılar yaxşı bilir,
Sərin olur bağ havası.
Görüş yeri məlum idi,
Ünvan - Həsən çayxanası.

Heç bir kəsə minnəti yox,
Hər kəs üçün zəhmət çəkər.
Hörmət-izzət yiyəsidir
Alim Əkbər, şair Əkbər.

Dünən söhbət eləmişdik,
Görməliydi dostlar bizi.
Əkbər təyin eləmişdi
Bizim görüş yerimizi.

Biz Əkbəri gendən gördük,
Fikirliydi o bir qədər.
O da bizi görər-görməz
Çox sevindi, bizdən betər.

Sevgimizi gizlətmədik,
Qucaqlaşdıq gülə-gülə.
Görüşəndə tanış etdim -
Dostlarımı Əkbər ilə.

Cavab verər o anında
Kim tarixi etsə bərbad.
Tarixçidir hər ikisi -
Bu Səfəddin, bu da Murad.

Əli Rzanı biz soruşduq,
Vilayətdən xəbər varmı?
Əlbəttə ki, zəng etmişdim,
Zəng etməmək heç olarmı?

Hiss elədim, bu əsəbiydi,
Hər nə dedi, betər dedi
Görüşü çox uzatmarıq,
Saat yarım yetər, dedi.

Xoş-beş etdik Əkbər ilə,
Bu görüşə çox sevindik.
Çay süfrəsi çox çəkmədi,
Biz yeni bir fikrə düşdük.

Pis olmazdı bu şəhəri
Bir az gəzib bir dolaşaq.
Bu görüşün şərəfinə
Bu şəhərlə doğmalaşsaq.

Hər bir kəsin hörməti var,
O, şəhərdə deyil naşı.
Burda Əkbər müəllimin
Nə çox imiş dost-tanışı.

Şəhəri bir xeyli gəzdik,
Göz oxşayan yerlər nə çox.
Döndük yenə çayxanaya:
Uşaqlardan bir xəbər yox.

Dostlar niyə gecikirlər?
Alim Əkbər bərk darıxdı.
Çox keçmədi Əli Rza
Vilayətlə gəlib çıxdı.

Hər kəs yaxşı anlayırdı
Bu dostluğun qiyməti nə?
Mircəlal da qoşulubmuş
Vilayətin dəvətinə.

Səfəddinlə Muradı mən
Dostlarımla tanış etdim.
Kənddən olan dostlarımdan
Söhbət açdım, kəndə getdim.

Hər bir işdə, əməlimdə,
Cavabdehəm hər işimdə.
Dostlarım da çox sevindi,
Dostlarımla görüşündə.

Dostlar söhbət marağında
Əyləşdilər deyə-gülə.
Söhbətimiz davam etdi,
Sonra gəldik Əkbərgilə.

Biz həyətə girər-girməz
Çay süfrəsi hazırlandı.
Dəmir manqal düşdü işə,
Ocaq yandı, alovlandı.

Ev-eşikdə sahmana bax,
Sahmanlıdı ev yiyəsi.
Talvar boyu nizamlanıb,
Yerbəyerdi dost süfrəsi.

Payız vaxtı olsa belə,
Gün döyürdü nar bağını.
Tanrı daim var eləsin,
Dostumuzun ocağını.

Yavaş-yavaş cəm oldular
Şeir, sənət adamları.
Əli Rza olan yerdə
Hər kəs baxar ona sarı.

Süfrə açdı alim Əkbər,
Elə də çox gecikmədi
Qohum-qardaş, dost-tanışlar...
Sevənləri burda idi.

Səhərli "dost" yoxa çıxdı,
Kənddən gələn ərinmədi.
"Haca gedən tez qayıtdı,
Saca gedən görünmədi".

Hərə bir cür kökə bağlı,
Ot da kökü üstə bitər.
Çox çəkmədi yetən gəldi,
"İtən dostlar" gəlmədilər.

Əkbər azca gülümsəyib,
Salamladı hər bir kəsi.
Görüşümüz, dostluğumuz
Əlli ilin möcüzəsi.

Tələbəlik illərindən
Xoş günləri saldı yada.
Həyatımız gözəl keçib,
Verməmişik ömrü bada.

Dostluğumuz əlli ildir,
Əllisi də bizə bəlli.
Bu dünyanı heç bir zaman
Tutmamışıq ikiəlli.

Məqsədimiz, məramımız
Hər kəs üçün bəlli idi.
Ötənlərə dönmək çətin,
Bu görüş bir təsəlliydi.

Xatirələr ayaq açdı,
Uzaqlara varıb getdik.
Biz Göyçayın dünənindən,
Bu günündən söhbət etdik.

Rəsul Rza xatırlandı,
Yada düşdü Əli Kərim.
Rəhmət ilə anıldılar,
Sənətini sevdiklərim.

Qələm əhli, söz əhlini
İnanma ki, xalq unuda.
Gördük xalqın sevgisində
Biz İsgəndər Coşqunu da.

Məclis sükut içindədi,
Danışmırdıq heç birimiz.
Xəyalların axarında
Uzanırdı məclisimiz.

Xələflini görsün deyə
Budaqları nar əyibdi.
Məclis şeir marağında,
Yemək yada düşməyir.

Hərə bir cür köklənmişdir,
Belə coşa, belə qıza.
Hər kəs xəyal içindəydi,
Meydan aldı Əli Rza.

O, sevgidən söhbət açdı,
Deyəmmədi hər gerçəyi.
Oğrun-oğrun ona baxdı
"Nar ağacı, nar çiçəyi".

Dedikləri Haqdan gəldi,
Qəlbindədir hər bir kəsin.
Haqdan dedi, haqlı dedi,
Kimsə ondan inciməsin.

*(Davamı 16-cı səhifədə)*

*(Əvvəli 6-cı səhifədə)*

Ötənləri xatırladı,
Döndü geri, qaçağına.
Nifrətini barıt edib,
Atdı düşmən ocağına.

Qələbədən söhbət saldı,
Sığal çəkdi yaramıza.
Qalib əsgər sevincini
Yaşayırdı Əli Rza.

Silkələdi söz dağını,
Qayaları sürüklədi.
Sözü qoyub zindan üstə,
Nəfəsiylə körüklədi.

Küləklər də qoşuldular
Xələflinin nəfəsinə.
Kəsərli söz pul-pul oldu,
Döndü qılınc tiyəsinə.

Şimşək çaxdı, göy gurladı,
Şair sözün həvəsində.
Söz-qılıncın tiyəsini
Gördüm düşmən sinəsində.
Sevənləri xatırladı,

Sözü gözdən salmaq olmaz,
Söz yerini biləndi o.
Döndü sevgi yağışına,
Çəmən üstə ələndi o.

Hər kəs sözlə sehrləndi,
Bu nə maraq, bu nə sirdi?
Elə bil ki, məclis əhli
Çoxdan şeir dinləmirdi.

Ürəklərdə sevgi hissi,
Hər kəs atıb dərd-sərini.
Sanki göylər yerə enib,
Dinləyirdi Xələflini.

Doğmalaşdı hər kəs ilə,
Ələ aldı o, məclisi.
Qonaqlıqdan "çıxdı" şair,
Dönüb oldu "ev yiyəsi".

Sən şairin gücünə bax,
Ovsunladı hər bir kəsi.
Səsin gücü, söz kəsəri
Nizamladı bu məclisi.

Şair yenə yada saldı
Ötüb keçən o illəri.

# GÖYÇAY SƏFƏRİ

Alovlara büründü o.
Kəhkəşana qanadlandı,
Ulduz kimi göründü o.

O illərdən xəbəri yox,
Qalaqlayıb il üstə il.
Gəncliyinə qayıtmasa,
Göy üzündən enən deyil.

Hər kəs yaxşı bilirdi ki,
Xələflinin dərdi nədi.
Bir Əli Rza göz üzündə,
O birisi bizimlədi.

Xələfli də yaxşı bilir,
Xeyri yoxdur heç bir kinin.
Göydəkinin yeri bəlli,
Vay halına yerdəkinin.

## *Əlavə*

Hərə bir cür sevdi onu,
Söz sahibi döndü pirə.
Zaman ona vaxt ayırdı,
Ustad göydən endi yerə.

Yerlə-göylə əlləşirdi,
Birdən-birə o dəyişdi.
Düşdü sözün axarına,
Çeşmə kimi həzinləşdi.

Sevənlərin xatirinə
Ümmanlara qarışdı o.
Sığal çəkdi ötənlərə,
Bu günüylə barışdı o.

Sevgidən söz salan şair.
Pərvanəni saldı yada.
Yandı həsrət işığında,
Sevgisini yazdı o da.

Ruhumuza sığal çəkdi,
"Payız vaxtı yaz günləri".

Həsrət ona qarşı çıxsa,
Qılıncını qoymaz qına.
Savalanın qarı belə
Kömək etməz yanğısına.

Nifaq salıb, girən olsa
İki dostun arasına,
Ağrıları kəsən deyil,
Araz axsa yarasına.

Ürəklərdə çiçək açdı
Əli Rza şeirləri.
"Xələfli" də durub gəldi
Cəbrayıldan üzü bəri.

Hərə bir cür sehrləndi,
Bu nə hikmət, bu necə sirr?!
Sən şairdə sevgiyə bax,
Məclisinə dağ-daş gəlir.

Yazacağı, yazdıqları
Nizamlanıb yaddaşında.
Qalib əsgər kimidir o,
Fikirlərin savaşında.

Hər kəs sevgi içindəydi,
Ürəklər bir döyünürdü.
Bu görüşün, bu tədbirin
Sonu hələ görünmürdü.

Ürəklərdə sevinc hissi,
Məclisimiz uzun sürdü.
Səhər yola çıxmalıydıq,
Bunu heç kim düşünmürdü.

*15.11.2025-ci il*